**“Məlumat toplularının hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Məlumat toplularının hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının “Məlumat toplularının hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. “Məlumat toplularının hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. “Məlumat toplularının hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununun 12.3-cü və 12.2-ci maddələrində nəzərdə tutulmuş məlumat toplularının rəsmi qeydiyyat qaydalarını və qeydiyyat haqqında şəhadətnamənin nümunəsini təsdiq etsin;

1.5. həmin Qanunun 12.4-cü maddəsində nəzərdə tutulmuş rəsmi qeydiyyatdan keçirilmiş məlumat toplusuna hüquqların tam və ya qismən verilməsi haqqında müqavilənin qeydiyyatdan keçirilməsi qaydasını müəyyən etsin;

1.6. öz səlahiyyətləri daxilində “Məlumat toplularının hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanunundan irəli gələn digər məsələləri həll etsin.

*2. Müəyyən edilsin ki:*[1]

*2.1. “Məlumat toplularının hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununun 12.1-ci və 12.4-cü (ikinci halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;*

*2.2. həmin Qanunun 12.3-cü və 12.4-cü (birinci halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;*

*2.3. həmin Qanunun 12.1-ci və 12.4-cü maddələrində qurum dedikdə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi nəzərdə tutulur.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 noyabr 2004-cü il
№ 140

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 11 iyun 2018-ci il tarixli **124** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 12 iyun 2018-ci il, № 131)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 11 iyun 2018-ci il tarixli **124** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Azərbaycan" qəzeti, 12 iyun 2018-ci il, № 131)** ilə 2-ci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2. Müəyyən edilsin ki:~~

~~2.1. "Məlumat toplularının hüquqi qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 12.4-cü (birinci halda) maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;~~

~~2.2. həmin Qanunun 12.1-ci və 12.4-cü (ikinci halda) maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyət orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi həyata keçirir.~~